***Dürdanə YUSİFOVA*** *

# AZƏRBAYCANIN ORTA ƏSR QALALARINDA ARXEOLOJİ TƏDQİQATLAR

**Açar sözlər:** İstehkam, qala, şəhər mədəniyyəti, arxeoloji qazıntılar, bürc, hərbi-strateji, müdafiə.

**Key words:** fortification, castle, urban culture, archaeological excavations, constellation, military-strategical, defense

**Ключевые слова:** укрепление, крепость, городская культура,археологические раскопки, башня, военно-стратегический, оборонительный

Azərbaycanın maddi mədəniyyət abidələrindən olan müdafiə istehkamları və qalalar burada ilkin inşaat mədəniyyətinin izlərindən xəbər verən maddi sübutlardır. Azərbaycan ərazisi şərqdən qərbə, şimaldan cənuba doğru belə abidələrlə zəngindir. Şübhəsiz ki, ilk və klassik orta əsrlər dövrü yaşayış yerləri, şəhərlər, qalalar onların meydana gəlməsi, inkişafı, şəhər mədəniyyətinin formalaşması məsələlərinin şərhi arxeologiya elmi üçün bu gündə aktuallığını saxlamaqdadı. Doğrudur, bu yönümlü problemləri İ.M.Cəfərzadə (3), C.Ə.Xəlilov (13), Q.İ.İsmizadə (15), S.M.Qazıyev (18), Q.M.Əhmədov (6;7;8), R.B.Göyüşov (12), H.Ciddi (4;5), A.M.Məmmədov (23), K.M.Məmmədzadə (24), Ə.Ə.Əliyev (9), F.B.Qədirov(17), Ş.İ.Mehdiyev (21;22), və. s tədqiqatçıların ayrı-ayrı əsərlərində öyrənilmiş olsa da bu maddi mədəniyyət abidələrinin tarixi problemləri daim diqqət mərkəzindədir.

Qala və istehkamların tədqiqi, dövrün ictimai, sosial – siyasi və hərbi məsələlərinin öyrənilməsi üçün dəyərli mənbələrdən biri olaraq olduqca əhəmiyyətlidir. Araşdırmalarda qalaların böyük əksəriyyəti ilk orta əsrlər və feodalizmin çiçəklənməsi dövrünə təsadüf edir. Belə ki, burada ilk feodal dövrü müdafiə tikililərindən olan Dərbənd istehkamı, Beşbarmaq, Gilgilçay müdafiə istehkamları yadellilərin hücumundan müdafiə məqsədi ilə əlaqələndirilsə də, bu müdafiə sədləri, həm də dövlətin sərhədlərini nəzarətdə saxlamaq funksiyasını daşıyırdı.

* **Yusifova Dürdanə** - AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsinin elmi işçisi, durdane. yusifli 74 @ mail.ru





Bu istehkamların çiy kərpicdən ya da kvadratşəkilli yaxşı bişmiş hörgüyə keçən nisbətən kiçik ölçülü daş pilətələrdən tikildiyi, istehkam sisteminə divarlardan əlavə qalalar və bürclər daxil olduğu qeyd edilir (24,s.27).

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlət dəstəyi ilə o dövrün inzibati-hərbi mərkəzlərinə çevrilmiş şəhərlərdə Qəbələ, Beyləqan, Bərdə, Naxçıvan, Şamaxı, Gəncə o cümlədən cənub bölgəsində genişmiqyaslı arxeoloji qazıntı işlərinə başlamışdı. Bəhs edilən dövrdə Beşbarmaq müdafiə divarları, Gil-Gilgiçay müdafiə səddi, Çıraqqala, Dərbənd müdafiə divarları tədqiq edilmişdi (9, s.8). Şimal-Şərq istehkamları toplu tədqiqinə dair arxeoloji işlər aparılmış bir sıra maddi-mədəniyyət nümunələri aşkar edilmişdi. Müdafiə sədləri, qalalar haqqında ərəb, yunan mənbələri ilə yanaşı yerli yazılı mənbələrdə məlumatlar yer alır.

Yerli mənbələrdən olan M. Kalankaytuqlunun "Alban tarixi" əsəri də dövrün ictimai-siyasi mənzərəsi haqqında dolğun məlumatları özündə əks etdirir. Belə ki, müəllifin adı çəkilən əsərində albanların Sasanilərə qarşı üsyanı zamanı əsas döyüşün məhz II Yəzdəgerdin tikdirdiyi qalada baş verdiyini və sasanilərin zorla qalanı tutaraq dağıtdığı haqqında məlumat verilir (16,s.40).

Bu məsələylə bağlı fərqli mülahizələr vardır.K.V.Treverə görə cərəyan edən bu siyasi savaşın Hun darvazalarında getdiyi fikrini bildirir. Tədqiqatçı Ə.Ə.Əliyev isə M. Kalankaytuklu-nun göstərdiyi qalanın şübhəsiz Beşbarmaq qalası və ona paralel səddin olduğu fikrini əsaslandı-rır (9,s.9). Tədqiqatlarda qala divarlarının inşasında Şirvan-Abşeron memarlığından istifadə edildiyi, qala bürclərinin əhəng daşı və gəc məhlulu ilə tikildiyi aqlay daşları ilə üzləndiyi haqqında ətraflı şərhlər verilmişdir.

Müdafiə istehkamlarının tədqiqi haqqında ilk elmi məqalə E.A. Paxomova aid olmuşdur. E.A Paxomova görə, 50 milyon ədəd kərpicdən tikilən və uzunluğu 30 km olan Gil-Gilçay sədd Çıraqqalada tamamlanır. Çıraqqala haqqında ilk məlumatlar M.A.Useynov, İ.P. Şeblikin məlumatlar versələr də daha ətraflı tədqiqat işləri X.P.Abdullayev, Ə.Ə. Əliyev tərəfindən aparılmışdır (9). Sözügedən möhtəşəm memarlıq abidəsi ilk orta əsrlər dövrünə aid olub, Çarax kəndindən 1,5km cənub-şərqdə "Qalaaltı" sanatoriyasının şimalında yerləşir.

İstehkamlar, yəni qalalar forma və quruluşuna görə üç qrupa bölünür; Birinci qrupa düzənlikdə; ikinci qrupa dağ yamaclarında düzbucaq

formada tikilən qalalar, üçüncü isə dağ zirvəsində yerin relyefinə uyğun olaraq tikilən qalalar aid edilir (17, s.115). Birinci qrup qalalar divarlarının qalın və bir qədər hündür olduğu, bürclərinin və mazğallarının düzbucaqlı formada tikildiyi; İkinci qrup isə divarları nisbətən nazik olması ilə fərqlənir. Bu cəhət qalanın əlverişli mövqedə tikilməsi ilə səciyyələnir. Üçüncü qrup qalalar isə yüksək dağ zirvəsində əvvəlkindən fərqli olaraq düzbucaqlı formada bürclərlə yanaşı yarımdairəvi bürclərin olması ilə seçilir. Yarımdairəvi bürclər gözətçi funksiyası daşıyırdı.

Düzbucaqlı forma və quruluşa malik olan qalalardan biri də Küngüt qalasıdır. Qala Şəkinin Baş Küngüt kəndində Kilsədağın üstündə yerləşir. Küngüt qalasının uzunluğu 120 m, eni 42m-dir. Divarlarının qalınlığı 2,65 metr, bürcləri düzbucaqlı formada olub, qala əhəng və çaydaşının qarışığından hörülmüşdür (17,s.37). Arxeoloji tədqiqat işlərinin nəticələrinə görə bir necə maraqlı məqamlar diqqət çəkir. Belə ki, qədim qalaın bürc və mazğal hissələrində forma müxtəlifliyinə rast gəlinmişdir. Qədim qala bürcləri və mazğalları düzbucaq və üçbucaq formalarında olduğu halda ilk orta əsrlərə nisbətən son orta əsrlərdə, xüsusulə odlu silahdan istifadə olunmağa başladığı dövrdən istehkamların quruluşundakı dəyişikliklərlə səciyyələnir (18, s.151). İlk orta əsrlərdə qala qarşısında qalanı dağıtmaq üçün daşdan, alovdan, ox, nizə və hücum üçün nərdivanlardan istifadə olunmuşdur. İnkişaf etmiş orta əsrlər dövründə isə müdafiə istehkamları yeni döyüş üsullarına uyğun top və tüfənglərdən atəş açmaq üçün münasib olan mazğallar yaratmağa başladılar.

Azərbaycanda feodal münasibətləri meydana gəldikdən sonra, feodallara məxsus olan, istər ilk orta əsr, istərsədə orta əsrlərin sonrakı inkişaf mərhələsində şəhərlərdə inşa edilmiş iç (köməkçi) qalalar mövcud idi. Bu qalalar müharibələr zamanı hər bir feodal ailəsinin və əyanlarının tam mühafizəsini təmin etmiş olurdu. Buna görə də ayrı-ayrı feodallar öz iqamətgahlarının ətrafında bir sıra müdafiə tədbirləri görməklə yanaşı, əlavə olaraq, təbii cəhətdən əlçatmaz qayalar və ya dağlar üzərində möhtəşəm qalalar ucaldılırdı (12, s.31).

Qafqaz Albaniyasının erkən orta əsrlərə aid iri yaşayış yerlərinin ətrafında möhkəm müdafiə qalaları olmuşdur. Müşahidələrdən və arxeoloji dəlillərdən aydın olur ki, müdafiə əhəmiyyəti daşıyan qalalar ölkənin paytaxt olan şəhərlərin yanında ucaldılmış, nisbətən böyük olmaqla onlarda silah və ərzaq ehtiyatı saxlanılan anbarlar, su kəhrizləri, silah hazırlanması





üçün emalatxanalarla təchiz edilmişdi. Belə qalalardan biri də Bərdə rayonunun Kələntərli kəndi ərazisində Tərtər çay hövzəsində yerləşən Kaqankat qalasının qalıqlarıdı. Qalanın hərbi strateyi baxımdan əlverişli yerdə olduğu, bütün keçidlərdə dairəvi bürclərdən ibarət xüsusi gözətçi yerləri ilə əhatələndiyi, bürclərin hamısında mazğalların olduğu, bürclərin birinci mərtəbəsinin silah saxlamaq, ikinci mərtəbəsinin isə yalnız əsgərlərin dayanması üçün nəzərdə tutulduğu qeyd edilir (12, s.54; 2, s.25 31).

Müşahidələrdən aydın olur ki, Azərbaycanın müdafiə istehkamları Sasanilər dövrünün yerli memarlıq məktəbinin məhsulu olaraq forma və quruluşuna görə Zaqafqaziya, Dağıstan, Orta Asiya və İranın həmdövr abidələri ilə səsləşir.

İlk orta əsrlər dövrünə aid, müdafiə sisteminin möhkəmlənməsinə xidmət edən qalalar sırasına Tərtər çayının başlanğıcında indiki Zar kəndinin yaxınlığında Zar qalası, Kəlbəcərdən bir qədər şərqə doğru Lək qalası, Tutqu çayının Tərtər çayına töküldüyü yerdə sıldırımlı bir zirvədə inşa edilmiş Çomərd qalası və Torağay çayının Tərtər çayına töküldüyü yerdə tikilmiş Çrabert qalaları olduğu qeyd edilir (21, s.14-16). Araşdırmalar bu qalaların ilk orta əsrlərdə əsasının qoyulduğu və XII-XIII ərlərdə çiçəklənmə dövrü keçirdiyini özündə ehtiva edir.

Ağdərə ərazisində tarixi etibarı ilə Arsax vilayətində öz quruluşu və qədimiliyi etibarı ilə diqqəti cəlb edən mühüm abidələrdən biri Çarabert qalasıdır. Qalanın adı ilə bağlı fərqli fikirlər mövcud olmuşdur. Tədqiqatçı R.B.Göyüşovun fikrincə onun mənası "alınmaz qala", "sərt qala" deməkdir (12, s.53-58). Qala Ağdərədən 20-25 km şimal- şərqdə, Tərtərçayın sol sahilində, Turaqayçayının Tərtərlə birləşdiyi yerdə çayın sıldırım sahilində bina edilmiş hərbi-strateji nöqteyi-nəzərdən əlverişli bir mövqedə yerləşir. Qərb tərəfdən sıldırım qayalıqla əhatələnir. Qala divarı yerin xüsusiyyətindən aşlı olaraq, bəzi yerdə alçaq, bəzi yerlərdə isə yüksək tikildiyi qeyd edilir (22, s.81-82). Onun ən hündür yerində hündürlüyü 8-9 m, ən alçaq yerdə isə 2,5 m-dir.

Yerli mənbə olan "Alban tarixi" adlı əsərdə Çarabert qalası haqqında məlumat verilir. Mənbədə Alban katalikosu Viro xəzərlərin hücumları zamanı ölkənin vəziyyətini müzakirə etmək üçün bu qalada yığıncaq keçirir (16). Göründüyü kimi qala Bərdə də Alban hakimlərinin ən böyük müdafiə qalalrından olduğu haqqında aydın təəsürat yaradır.

İlk orta əsr şəhər və qalalar mövzusunun tədqiqatçılardan olan H.Ə.Ciddi Şirvanın orta əsr müdafiə qalalarından olan Gülüstan qala bürclərinin forma və memarlıq üslubu haqqında yazır: "İstehkam tipli qalalar Dağlıq Qarabağ ərazisində geniş yayılmışdı. Bunların çoxu gözətçi bürcləridir. Xüsusu ilə Umudlu kəndi ətrafında tikilmiş silindirik formalı mazğalar, bürclər bu cəhətdən xarakterikdir"(5, s.49)

Sözü gedən ərazi ilk orta yüzilliklərdə mövcud olmuş Ana şəhər olduğu qeyd edilir. Ana şəhərin ilk orta əsr qalalarından olan Çaraberddən 3-4 km qərbdə-yerləşir. Şəhərin xarabalıqları Dağlıq Qarabağda Ağdərənin 15km-də, onun şimal-şərqindəki meşəlikdə yerləşdiyi qeyd edilir (14).

Tədqiqatçı C.B. Bağırzadə xaraba şəhərin ümumi sahəsinin 25-30 hektar olduğunu onun ətrafına yarımdairəvi bürcləri olan qala divarları çəkildiyini, qala divarlarının 20x20x4 sm, 22x22x5 sm ölçülərində bişmiş kərpicdən daş bünövrə üzərində qurulduğunu yazır (2, s. 34, 35). Şəhərin cənub giriş yolu üzərində iki mərtəbəli dairəvi olan gözətçi bürcünün diametri 5metr, divarının qalınlığı 55 sm, hündürlüyü isə 5 metr ölçülərində olmuşdur.

Möhtəşəm müdafiə tiklilərinin içərisində Şirvanın müdafiə qurğularına daxil olan Güngörməz qalası da xüsusi əhəmiyyət kəsb edir. İki hissədən ibarət olan müdafiə qalasının birinci hissəsi 4-5 hektar ərazini əhatə edir. Qalanın ikinci hissəsi isə 34-40 hektar ərazidən ibarət olmuşdur.Qala yerli əhali arasında Yastı və Yuxarı qala adları ilə iki adda tanınır. Üç divar qalıqları Yuxarı qalada, dörd divar qalıqları isə Yastı qalada müşahidə edilmişdir. Bu qalada arxeoloji tədqiqatlar 1989-cu ildə R.M.Vahidov tərəfindən aparılmışdır.

Arxeoloji tədqiqatlar zamanı Şamaxı şəhərinin şimal-şərq hissəsində Buğurd qalasında tədqiqatlar zamanı hələ IX-XIII əsrlərdə yaşayışın olduğu müəyyənləşmişdir. Bu qalanı digər qalalardan fərqləndirən cəhət təbii aşrımlarla bir-birinə birləşən silsilələrin olmasıdır. Tədqiqatlarda Buğurd qalasının yerləşdiyi yer Cəngi dağının istiqamətində ön istehkamların olduğu, həmçinin dağın zirvəsində "Şah evi" adlanan Narınqala tipli istehkamın dörd tərəfdən uçurumlu qayalıqlarla əhatələndiyi qeyd edilir( 1 ).

1959-62-ci illərdə C.A. Xəlilovun Xınıslı arxeoloji ekspedisiyası geniş miqyaslı arxeoloji qazıntı işləri zamanı Gülüstan qalası müdafiə istehkamını və qüllələrini, həmçinin maddi mədəni abidə qalıqlarını aşkar etmişdir (13,s.31-47). Azərbaycanın orta əsr möhtəşəm Gülüstan qalası tədqiqatlarda





Şamaxı şəhərindən 3km şimal-qərbdə, Böyük Xınıslı kəndindən 200 m, yüksəklikdə Gülüstan dağının üzərində yerləşdiyi haqda məlumat verilir.

Xatırladaq ki, Y.A.Paxomov 1938-ci ildə Gülüstan qalasının su təchizatı və müdafiə sistemi, o cümlədən gizli yollar haqqında mülahizələr irəli sürmüş, tədqiqatçı H.Ciddi 1967-ci ildə qalanın Narınqala hissəsində dörd otaq və dəhlizin divarlarını üzə çıxartmışdır (5).Gülüstan qalasında qazıntı işləri nəticəsində qalanın 1№li şərq tərəfdə yerləşən dəhlizvari yerdən tapılan materiallar IX-X əsrlərə 1№li otaqdan tapılan materiallar isə XI-XIII əsrlərə aid olması sübut edilmişdir. Qazıntı sahəsindən olan şirli və şirsiz qab qırıqlarına, kasa, piyalə, saxsı çıraq, təkqulplu saxsı qabların oxşarına Örənqala qazıntılarında da rast gəlinmişdir. Arxeoloji qazıntı nəticəsində Gülüstan qalasında IX əsrdə yaşayışın olduğu sübut olunur (4, s. 44-47). Qeyd edildiyi kimi, əksər müdafiə qalaları ilk orta çağlardan başlayaraq IX-XI əsrlərdə dinamik inkişaf mərhələsində olduğu, getdikcə tikinti texnikasının təkmilləşdiyini sübuta yetirir.

Akif Quliyevin rəhbərliyi ilə, qaladan cənub-şərqdə qazıntı işləri zamanı şirli və şirsiz qab fraqmentləri, müxtəlif ölçülü və təyinatlı küplər, bardaqlar, ox və nizə ucluqları, əmək və məişət əşyaları tuncdan misdən hazırlanmış bəzək əşyaları mis və gümüş pullar əldə edilmişdi ( 19,s.243). Tədqiqatlar 2015-ci ildə də davam etdirilmiş, cənub-şərq divarına paralel olan cənub-qərb divarları aşkar edilmişdir. Hər biri 300 kv olan otaqlar, anbar, kazarma, həbsxana təyinatlı olduğu qeyd edilir. Qazıntı sahəsindən çoxlu sayda şirli və şirsiz qablar, şüşə və pastalar muncuqlar, əmək və silah alətləri, daş kitabə, numizimatik materiallar və.s aşkar edilmişdir (20, 298-303).

Gülüstan adı ilə tanınan daha bir qala Goranboy rayonunun Gülüstan kəndindən iki kilometr cənub-şərqdə, dəniz səviyyəsindən 170 m, ətraf ərazilərdən 200-250 m hündürlükdə olan bir dağın üstündəki yaylada yerləşir. Cənub hissədə divar 1-1,5 metr qalınlığında hörülmüşdü. Qalanın uzunluğu şərqdən-qərbə doğru 200-210 m, eni isə şimal-cənub istiqamətində 20-25 metrədək uzanır. Şimal və şərq hissələrdə divarlar qayanın lap uçurumuna söykənmişdir (23). İstehkamın yerləşdiyi dağın üstü hamar deyil sərt və maili yamac formasında yuxarıya qalxır. Qala yerləşən yerin ən yüksək zirvəsində ikinci qala divarı və daha iri bürclərlə əhatə olunmuş qurğunun olması göstərir ki, iki hissədən, ön və arxa istehkamlardan (Na-

rınqala) ibarətdir. Qala içərisində qala tipli istehkamlar Azərbaycanın bir çox şəhərlərindən məlumdur. Strateji cəhətdən əlverişli, hündür yerdə tikilmiş bu istehkamlar ilk feodal formalı şəhərlər adlanır. Narınqala daxilindəki binalarda feodalların yaxın adamları, məsul idarə məmurları, dini və ictimai xadimlər yerləşdirilirdi.

Qarabağın Gülüstan qalası da ətraf yaşayış yerlərindən aralı, yüksək bir dağın üstündə bina edilmiş əsl müdafiə tipli qaladır. Qala üç arakəsməyə bölünür. Arakəsmələrdəki otaqlardan birinin uzunluğu 8 m, eni 5,6 metrdir. Bu hissədə qalanın eni 19-22 metrdir. Otaq qurtardıqdan sonra qalanın ortasında 2 metr enində divar gedir, ondan 2,2 m sonra ikinci bir divar da var. Burada qalanın hər iki divarı boyunca binalar yerləşir. Binaların uzunluğu 4 m-dən 11 m arasında dəyişir. Binaların və divarların arasında keçid üçün yol var. Həmin yolun eni 2 m-dən artıq, giriş qapısının eni 1,8 m-dir. Tikilidə zirzəmi yeri qeydə alınıb. Bu onu göstərir ki, ya binalar iki mərtəbəli olub, ya da ondan silah və s. saxlamaq üçün istifadə edilmişdir. Hər binanın da özünün qapı, pəncərələri və hər iki kəllə divarı içərisində 4 ədəd şam yandırmaq və s. üçün yerləri vardır. Binalar qurtardıqdan sonra qalanın ortasında üçüncü divar var. Bu divarın cənub-şərq tərəfindən qalanın qalan hissəsinə keçmək üçün dar yol diqqəti cəlb edir. Həmin hissədə, lakin şimal tərəfdə gizli yeraltı yol dərhal nəzərə çarpır (23). Qeyd edək ki, bu cür yeraltı yollar müdafiəni asanlaşdırmaqla yanaşı təchizat işlərində mühüm əhəmiyyət daşıyırdı. Qalaları ətraf aləmlə birləşdirən yeraltı yollar Naxçıvanda Əlincə qalasında, Gədəbəydə Qız qalasında və s. olduğu tədqiqatlardan məlumdur. Dağ yamacı boyunca İnçəçaya enən yolun uzunluğu 200 m-dən artıqdır. Tunelin içərisində yolu nəzarətdə saxlamaq və ötürmə üsulundan istifadə edərək su daşınmasını asanlaşdırmaq məqsədilə xırda gözətçi yerləri düzəldilmişdir.

Qala divarı boyunca dörd yerdə gözətçi məntəqəsi yerləşir. Qərb tərəfdəki əsas gözətçi məntəqəsi iki mərtəbədən ibarət olub, birinci mərtəbəsində görmək üçün 3, ikinci mərtəbəsində 12 mazqal açılmışdır. Yaşayış binalarının yerləşdiyi sahəni əhatə edən mərkəzi divarlar bir-birilə iri bürclərlə birləşir. Bu bürclərdən ikisi salamat qalmışdır ki, onlardan da biri dairəvi, digəri isə dördkünc formalıdır.

Orta əsr şəhərlərinin qala divarlarının düz xəttlə getməsi, kvadrat planlı olması, bürüclərin yarımdairəvi formada tikilməsi qalaların müdafiəsini xeyli asanlaşdırırdı. Belə sistemli qala tikintisi dövrün ən təkmilləşdirilmiş müdafiə qurğusu hesab olunurdu və müdafiənin bütün tələblərinə cavab verirdi. Hər halda belə tikililər qalanın hərbi əhəmiyyətini və qüdrətini artırırdı (7,s. 45).





XII əsr abidəsi olan Bakı, Qız qalası (15), Goranboyda Gülüstan (Qız) qalası (23), Naxçıvanda Əlincə qala, Gədəbəydə Koroğlu qalası Qız qalası, Göy-göl rayonunda Balçılı qalası (23) da iri qaya üzərində inşa edilmişdir. Arxeoloji qazıntılar zamanı aydın olmuşdur ki, bu cür qalalar qala divarının bünövrəsi altında qaya, düz və üfüqi vəziyyətdə olmayıb qərbdən şərqə doğru xeyli mailidir

Tədqiqatlarda qeyd olunur ki, "Bir qayda olaraq şəhər ərazisinin yüksək, yaxşı müdafiə olunmuş hissələrində"İç qalalar" (Narınqala) yerləşirdi. İç qalalarda hökmdarların iqamətgahları, saray kompleksləri olurdu. Divarlarla əhatələnmiş və böyük ictimai dini binaların daha çox cəmləşdiyi "Şəharistan" şəhərin əsas hissəsi hesab olunurdu (15,s.12).

II Kültəpə Naxçıvan arxeoloji ekspedisiyası Naxçıvanda qədim qalatikmə memarlığının xüsusiyyətlərini öyrənməklə yanaşı arxeoloji qazıntılar zamanı II Kültəpə qala divarlarının köçərilərin basqınları nəticəsində uçurulmuş şimal və qərb divarlarının yenidən bərpa olunduğunu və ikinci qala divarının inşasını birinci qala divarının planında aparılması müəyyən etmişlər. Divarların memarlıq inşasına gəldikdə isə birincinin çay daşı və gil palçıqdan, ikinci dəfə ucaldılan qala divarlarının möhkəmliyini təmin etmək üçün içəridən dayaq məqsədilə tikilmiş qala divarının yaxınlığında müxtəlif həcmli daş topası olduğu qeyd edilir ki, (10,s. 118) bu da qalaya hücum zamanı düşmən üzərinə atmaq üçündə nəzərdə tutulmuşdur.

Tədqiqatlar nəticəsində II Kültəpə (Qədim Naxşıvan) Narınqalasının şimal divarının planı tam müəyyənləşdirilmiş, qala divarının düzgün memarlıq planının da olduğu sübut edilmişdir (10,s.118). Qazıntı sahəsində küplər, badyalar, bardaqlar, kasa tipli kiçik həcmli gil qablar aşkarlanmışdır.

İlk orta əsr şəhər mədəniyyətini özündə qoruyub saxlayan qalalardan biri də Beyləqan şəhərində yerləşən Örənqala abidəsidir. Örənqalada 1933-cü ildə İ.İ.Meşşaninovun rəhbərliyi ilə işləyən ekpedisiya Kiçik şəhərin şimal-şərq və şimal-qərb qala divarlarındakı darvazayanı bürclərdə kəşfiyyat xarakterli qazıntı işləri aparmış, Kiçik şəhərin qala divarları haq-

qında bəzi maraqlı mülahizələr yürütsədə memarlıq xüsusiyyəti və yaşı ilə bağlı məlumat əldə edilməmişdir. Belə ki, 1933-cü il Örənqala ekspedisiyası Kiçik sahəyə "Birinci şəhər", Böyük sahəyə "İkinci şəhər" sənətkarlar məhəlləsini isə "Üçüncü şəhər" adı vermişdir (27, s.6-11). Meşşaninov İ.İ. apardığı qazıntıları qısa təsvir etməklə Kiçik şəhərin şimal-şərq qala divarlarını üç tikinti dövrünə bölmüşdür. Birinci dövrə aid divarın çiy kərpicdən tikilmiş və xaricdən üç cərgə bişmiş kərpiclə üz çəkildiyini qeyd edir. İkinci dövrə möhrə divar qoyulduğu; üçüncü dövrdə isə həmin divarların ətrafına bişmiş kərpicdən dayaq düzəldiyi müəyyənləşdirilmişdi. Müəllif son torpaq divarının yaşını XII-XIV əsrlərdən sonraya aid olduğunu göstərmişdi (27, s.2,8).

Tədqiqat işlərinin gedişində Kiçik şəhərin divarlararası tökmə torpağın arasından çox az miqdarda saxsı qalıqları, kərpic qopuqları, sümük, şüsə və Eldənizlərə aid sikkə pul əldə edilmişdir (6, s.23). Qazıntı zamanı qala divarlarındakı tökmə torpaqda IX-X əsrlərə aid anqob zolaqlı qaba, çoxrəngli naxışlarla naxışlanmış şirli və zər naxışlı fayanas "minai " tipli qabların aşkarlandığı qeyd edilir.

1951-ci ildə İ.Cəfərzadənin rəhbərliyi ilə Örənqalada işləyən ekspedisiyanın qazıntı işlərinin nəticəsi olaraq belə bir qənaətə gəlinmişdir ki, Böyük şəhər Kiçik şəhərin kiçilməsi nəticəsində Kiçik şəhər meydana gəlmişdir (3,s.108-138).

1967-ci ildə aparılan arxeoloji qazıntılar zamanı məlum olmuşdur ki, darvaza şəhərin şimal-qərb divarlarının orta hissəsində yerləşərək, iki tərəfdən bürclərlə əhatələnmişdi. Bürclərin tikintisində möhrə, çiy və bişmiş kərpiclərdən istifadə edilmişdir. Üz divarı üçün çəkilən bişmiş kərpiclərin ölçüləri 26x26x6 və 27x27x6 sm qeydə alınmışdır. Qeyd edildiyi kimi Azərbaycan ərazisində ilk dəfə olaraq orta əsr şəhərlərinə xas olan qala divarları, darvazası və bürcləri Örənqalada müəyyən edilmişdir. İçərisinə su doldurulmuş xəndəklər sistemi ilə əlaqədar olan möhtəşəm qala divarlarının düşünülmüş sxemi müdafiə inşaatının mükəmməl olduğundan xəbər verir (24, s.40-42).

Qalada bərpa işlərinin Monqol istilasından sonra baş verdiyi haqqında tarix ədəbiyyatlarında məlumatlar yer almışdır. E.A.Paxomov qeyd edir ki, "Teymurləng Tiflisi aldıqdan sonra qışlamaq üçün Beyləqanda qalır" (28, s.29). Şəhərə daxil olduqdan bir müddət sonra şəhərin bərpası əmrini verir. Yəni əvvəlki sərhədləri daxilində. Belə ki, onlar yalnız şəhərin 14,5 hektarında, qala divarlarında bərpa işləri apara biliblər. Böyük şəhərin yerində kiçik şəhərin arxeoloji qazıntılar nəticəsində kiçik şəhər divarlarının 1403-cü ildə Teymurləng tərəfindən inşa edildiyi fikri sübut olunmuşdur (26,s.280).





A.M.Məmmədovun rəhbərliyi ilə Gəncə arxeoloji ekspedisiyası 2012-ci il qazıntıları zamanı Gədəbəy ərazisində rayondan 100 km cənub-qərbdə yerləşən Qız qalası abidəsini qeydə almış, ilkin tədqiqatlar zamanı məlum olmuşdur ki, qala e.ə. II minilliyin sonu I minilliyə aid olan qalaçanın ərazisində inşa edilmişdir (23, s.130). Qala Şəmkirçayın sol sahilində, dəniz səviyyəsindən 1800 m, çay yatağından 500 metrədək hündürlükdə sıldırım qayalıqlarla əhatələndiyi qeyd edilir. Cənub istiqamətdə qalada yeddi bürc, bürclərdən altısı qismən salamat, birinin isə dağılmış vəziyyətdə olduğu və salamat bürclərin hündürlüyünün 20 metr ölçülərdə qeydə alındığı vurğulanır. Qala IX-X əsrlərə aid edilir (23, s.130).

Arif Məmmədovun rəhbərliyi ilə 2013-cü ildə Gəncə arxeoloji ekspedisiyasının Göygöl rayonun Balçılı kəndi ərazisi ətrafında yaşayış binalarının qalıqları olan IX-X əsrlərə aid edilən Qız qalasında da tədqiqatlar aparmışdır. Qala Balçılı kəndindən qərbdə kəndin 10 km-də dağın zirvəsində yerləşdiyi müəyyənləşmişdir. Qalaya yol qərb tərəfdən dərənin dibi və dağ yamacı ilə qalxdığı söylənilmişdir. Burda gözətçi bürcləri də var. Həmçinin mağaranın olduğu güman edilir. Qalanın inşasında 20x11x4 sm ölçülü kərpiclərdən istifadə edilmişdir. Bu abidənin Şəddadilər dövrünün müdafiə qalalarından biri olduğu güman edilir (23, s. 154)

Şəmkir çayının şimal-qərbində yerləşən qala şərqdən sıldırım qayalıqla əhatələnir. Qalada 12 bürc olmaqla, divarların qalınlığı 3- 3,5 metrdir. Üç hissədən ibarət olan qalaya su 4,5 km də yerləşən Qanlı dağdan su tingləri vasitəsi ilə çəkilib. Qala inşa xüsusiyyətlərinə görə IX əsrə aid edilir (23,s.100). Aparılmış müşahidə və araşdırmalar orada mədəni təbəqənin qalınlığının 0,5 metrdən artıq olduğu sübut edilir. Əldə olunmuş arxeoloji materiallar XII - XVII əsrlərdə ərazidə intensiv yaşayış olduğunu söyləməyə imkan verir. Bununla belə ərazidən tapılan bəzi materiallar orada hələ ilk orta əsrlər dövründən başlayaraq yaşayış olması ehtimalını irəli sürməyə imkan verir. Fikrimizcə, orada alt təbəqə ilk orta əsrlər dövrünə aid olmuş, onun əsasında sonrakı dövrün kənd tipli yaşayış yeri qismən böyümüş və intensiv həyat əsrlər boyu davam etmişdir.

Gədəbəyin Kiçik Qaramurad kəndinin yaxınlığında sıldırım qayaların üstündə həm müdafiə səddi, həm də keçid olduğu deyilir. Bu keçid vaxtilə Dərbənd keçidinə tarixi ipək yolunun bir qolu bu yoldan keçib. Gədəbəyin şimalında olan Qız qalası, Şəmkir çayı ilə Kürsü çayının qovuşduğu yerdə, ormana bürünən sıldırım qayanın zirvəsində yerləşir. Tikintisində qırmızı kərpicdən istifadə edilmiş bir qəsrdir. İçəridən iki səviyyəli olan tikili sərt qaya relyefinə uyğunlaşdırılmışdır. Dağın ən uca yerində, yəni üst qatda beşbucaqlı biçimi olan içqala yerləşir. Əsas tikinti kütlədə, yəni üst qatda beşbucaqlı biçimi olan içqala yerləşir. Əsas tikinti kütləsi və memarlıq xüsusiyyətlərinə görə araşdırıcılar onu XII yüzilin Eldənizlər dövrünün əsəri hesab edirlər. Qalanın baş tərəfi qərb tərəfdən 8 bürcdən ibarətdir. Qalanın üst hissəsində yaşayış kompleksi və bir neçə dağaltı yollar var. Həmin qaladan cənub istiqamətdə körpü var. Bu körpü "Nəmrud" və ya "Namərd" körpüsü adalanır (23).

Gədəbəyin Qala kəndində yerləşən Koroğlu qalasına dair xalq əsatirlər yaratmışdır. Rəvayətlərdən birində deyilir ki, Koroğlu yuxudaikən bir nurani qoca ona "qəhrəmanın yurdu düzdə olmaz dağda olar, yurda sel gələr deyir". Doğrudan da Koroğlu yatdığı yerə sel gəlir, onu yuxudan Qıratın kişnəməsi oyadır. Koroğlunu selin ağzından alır. Koroğlu gecə yatır və gecənin bir vədəsi ayılır ki, Qırat yoxdur. Qıratın oğurlandığını güman edir. Bir də görür ki dağın döşündə şimşək çaxır, qığılcımlar saçır. Qırat ayağının nalı ilə qalaya xım qazır (25). O vaxtdan Koroğlunun yurdu, sonralar Koroğlu qalası adı ilə tanınır. Xalqın yaddaşından süzülüb gələn əfsanələr dastanlar eyni zamanda həmin xalqın yaşadığı ərazinin tarixidir. Xalq arasında bu qalanın Koroğlu qalası kimi tanınması xalq yaddaşı ilə tarixi həqiqətin qovuşaraq əfsanələşməsi ilə nəticələnir. Son illərdə Arif Məmmədovun rəhbərliyi ilə qalaya baxış keçirilmişdir. Arxeoloji kəşfiyyat işləri zamanı 2017-ci ildə qalada iki mədəni təbəqə aşkar edilmiş, alt təbəqə VIII-IX əsrlərə, üst təbəqə isə IX-XII əsrlərə aid edilmişdi.

Arxeoloji tədqiqat işləri Azərbaycanın digər ərazilərində də xüsusən Cənub bölgəsinin müdafiə qalalarından olan Qız qalası, Oğlanqala, Büzeyr qalası, Ballabur, Ərkivan, Kanaqlı, və Şindan qalalarında arxeoloji kəşfiyyat işləri aparılmışdır (11,s.123-124).

Tarixi keçmişini bir çox arxeoloji və memarlıq abidələrində, qədim yaşayış məskənlərində qalaça və qalalarında yaşadan Cəbrayıl və Zəngəzur ərazilərində də möhtəşəm qalalar mövcud olmuşdur. Zəngəzur rayonunda Urut, Oxçu qalası, Cavidan, Bəzz, Qədim qala və ya Babək qalası belə qalalardandır. Urut kəndi ərazisində yerləşən Urut qalası haqqında məlumatlar eramızın 450-ci il ilindən başlayaraq 1386-cı il Teymurləngin qalanı fəth etməsi, 1407-ci ildə Teymurləngin ölümündən sonra Qaraqoyunlu Qara Yusif tərəfindən tutulması haqqında tarix ədəbiyyatlarında məlumatlar yer alır (1). O, cümlədən Qərbi Azərbaycanda Ələyəz dağından 2700 m yüksəklikdə Qız qalası kimi tanınan Bert qalası da yerli daşlardan inşa edilmiş və Qafqaz Albaniyasının dövrünə aid edilən qalalardandır. Görünür bu qala vaxtilə Araz sahili düzənlikdən keçən karvan yollarına nəzarət etmək üçün inşa edilmişdi. Hər bir tarixi abidə, əsl sahiblərinin kimlər olduğunu bildirdiyindən əfsuslar olsun ki, bütün Qərbi Azərbaycan ərazisindəki yer yurd adları kimi, salamat qalmış abidələrin adları da ermənilər tərəfindən dəyişdirilməkdədir.

Nəticə etibarı ilə deyə bilər ki, Azərbaycanın müdafiə istehkamlarının arxeoloji cəhətdən öyrənilməsi bir daha sübut edir ki, ilk orta əsr qalalarının yaranması və şəhər mədəniyyətinin formalaşması prosesi uzun tarixi bir yol keçmişdir. Bu ilk növbədə qalaların inşasında forma müxtəlifliyi ilə səciyyələnir. Belə ki, qədim qala bürcləri və mazğalları düzbucaq və üçbucaq quruluşda olduğu halda, inkişaf etmiş orta əsrlər dövründə düzbucaqlı və yarımdairəvi formalardan da istifadə edilmişdir. Qalalardakı bu forma müxtəlifliyi odlu silahdan istifadə ilə bağlı döyüş üsullarında tətbiq edilmişdi. Azərbaycanda aparılan arxeoloji qazıntılarda bu maddi mədəniyyət abidələrindən aşkar edilən mədəni təbəqələr bunu deməyə əsas verir ki, bu qalaların əksəriyyətində VII-IX əsrlərdən başalamış həyat fasilələrlə davam etmişdir. Qala ərazisindən keramika məmulatı və tikinti qalıqları buradan uzun müddət müdafiə istehkamı və sığınacaq kimi istifadə olunduğunu söyləməyə imkan verir.





## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan tarixi :.Yeddi cilddə, II c (III-XIII əsrin I rübü). Bakı: Elm, 2007, 608 s.
2. Bağırzadə C.V. Ağdərə IV-XIII əsrlərdə (Tarixi- Arxeoloji Tədqiqatlar) " Elm və təhsil", Bakı - 2014, 126 s
3. Cəfərzadə İ.M. 1951 ci ildə Örənqalada aparılan arxeoloji qazıntı işləri. Tarix və fəlsəfə İnstitutunun Əsərləri, IV cild, Bakı, 1954, səh. 109-138

4. Ciddi H. Gülüstan qalasında arxeoloji tədqiqatlar Azərbaycan SSR EA-nın Xəbərləri, İctimai Elmlər Seriyası, 1961, № 9, s.35-48
5. Ciddi H.Ə. Gülüstan qalası. Bakı, Azərbaycan SSR, EA. Nəşriyyatı, 1967, 116s
6. Əhmədov Q.M. Beyləqan şəhərinin sonuncu qala divarları. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, 1962 № 6, s. 17-30
7. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri, Bakı Elm 1979, 200s
8. Əhmədov Q.M. Örənqala (qısa tarixi oçerk), Az.SSR EA Nəşriyyatı, Bakı, 1962, 112s
9. Əliyev Ə.Ə. Gil-Gilçay səddi və Çıraqqala . Bakı: Turan NPB, 2014, 128 s.
10. Əliyev V.H., Məmmədov A.Ə. II Kültəpədə yeni tədqiqatlar (Naxçıvan MR, Babək rayonu) Azərbaycanda arxeoloji tədqiqatlar AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu B. 2011 s.115-124
11. Ələkbərov A.İ Müstəqillik illərində cənub-şərqi Azərbaycanda arxeoloji tədqiqatlar. "Azərbaycan Arxeologiya və Etnoqrafiya Elmləri Müstəqillik İllərində" Beynəlxalq Elmi Konfrans materialları. 10-14 noyabr Bakı, 2013 "Xəzər Universiteti" s.123-124.
12. Göyüşov. R.B. Qarabağın keçmişinə səyahət. Bakı, 1993, 83 s.
13. Xəlilov. C.Ə. Xınıslı qədim yaşayış yeri Az. SSR EA Xəbərləri, ictimai elmlər seriyası, Bakı 1961, №3 31-47s
14. İsmayılov M.Ə Sənin ulu baban .Bakı, Azərbaycan Dövlət Nəşriyyatı 1989, 302s
15. İsmizadə Q.Ş. Ciddi H.Ə. Bakı Qız qalası, Bakı, Azərb. Dövlət nəşriyyatı, 1968, 48 s.
16. Kalankatuklu Moisey. Albaniya tarixi., Mixitar Qoş. Alban salnaməsi./ Tərcümə və şərhlər. Z.M.Bünyadov, Bakı: Avrasiya- Press, 2006, 293 s.
17. Qədirov. F.B. Azərbaycanın şimal müdafiə istehkamları. Bakı- Elm- 199
18. Qazıyev S.M. Qəbələdə arxeoloji tədqiqatların ilkin yekunları. AMM, VI c, Bakı,1965, s 151-152
19. Quliyev A.A, Gülüstan qalasında aparılan arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı 2011 səh 240-247
20. Quliyev A.A., Hüseynov F.R 2015-2016-cı illərdə Gülüstan qalasında aparılan arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı 2017 səh 298-303.
21. Mehdiyev Ş.İ Tərtərçay vadisinin müdafiə qalaları haqqında. Azərb. SSR Elmlər Akademiyasının Tarix İnstitutu Elmi konfransın materialları Bakı-Elm-1989 214s
22. Mehdiyev Ş.İ. Çarabert qalası haqqında. Görkəmli Azərbaycan arxeoloqu Saleh Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş materialları. Bakı-Elm-1994.
23. Məmmədov A.M. Qədim Gəncə (arxeoloji tədqiqatlar əsasında). Bakı, "Təknur", 2014, 176s.
24. Məmmədzadə K.M. Azərbaycanda inşaat sənəti (IV-XVI əsrlər) Bakı-1978 " Elm"nəşriyyatı , 207 s
25. Paşayev. S Azərbaycanın əfsanə və rəvayətləri. Bakı-2007, 308 s
26. Ахмедов К.М. О тимуровской стен города Байлакана, СА, № 1, 1964
27. Мещщанинов И.И. Краткий осведомительный отчет о работе милсьской экспедиции 1933г. Труды Азерб. ФАН СССР, Баку, 1936
28. Пахомов Е.А. Паитакаран- Баилакан- Оранкала.МИА-67, М.а., 1959.






**ARCHAEOLOGICAL RESEARCHES IN MEDIEVAL PERIOD FORTRESSES OF AZERBAIJAN**
**SUMMARY**


Archaeological study of the fortifications of Azerbaijan once again proves that the creation of the first medieval fortresses has been a long history. This is primarily characterized by the diversity of forms in the construction of fortresses. Although ancient fortress constellations and loopholes were rectangular and triangular, rectangular and semi-circular forms were used during the High Middle Ages. The diversity of construction in the fortresses was applied to in the methods of battle associated with the use of firearms. Cultural layers discovered during the archaeological excavations carried out in Azerbaijan give oppurtunity say that in the most of these fortresses life span begin in the VII-IX centruies and continued with interruptions. Ceramic products and construction remains found from the fortress area let say that this fortress have been used for a long time as a fortification and shelter.


**АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В СРЕДНЕВЕКОВЫХ КРЕПОСТЯХ АЗЕРБАЙДЖАНА**
**РЕЗЮМЕ**


Археологические исследования оборонительных сооружений Азербайджана еще раз доказывают, что сооружение раннесредневековых крепостей неслучайно. Они прошли долгий исторический путь. В первую очередь, это проявляется в разнотипности форм постройки крепостей. Так, если древние крепостные башни и амбразуры были прямоугольной и треугольной формы, то в период развитого средневековья они были прямоугольными и полукруглыми. Такая разница в формах крепостей была связана с использованием огнестрельного оружия с укрепленной позиции во время сражения. Культурные слои, выявленные во время археологических раскопок в этих памятниках материальной культуры, позволяют прийти к выводу, что в большинстве этих крепостей жизнь появляется и продолжается с перерывами с VII-IX вв. На территории крепостей были найдены керамические изделия и строительные остатки, которые свидетельствуют о том, что крепости долгое время служили оборонительными сооружениями и убежищем.